**Aşur ƏLİYEV**
***Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru***

**Rəşad QARDAŞOV**
***Bakı Dövlət Universiteti "Kitabxana resursları və informasiya axtarış sistemləri" kafedrasının baş müəllimi***

# BAKI ŞƏHƏR NİZAMİ VƏ XƏTAİ MKS-lərində SƏNƏD-İNFORMASİYARESURSLARININ FORMALAŞMASININ ƏSAS İSTİQAMƏTLƏRİ VƏ MÜASİR VƏZİYYƏTİ

***Açar sözlər:*** *MKS, kitabxana, fond, informasiya resursu, kitabxana fondu, Xətai MKS-i, Nizami MKS-i, informasiya cəmiyyəti*
***Key words:*** *CLS, library, fund, information resource, library fund, CLS of Khatai, CLS of Nizami, information society*
***Ключевые слова:*** *ЦБС, библиотека, склад, информационный ресурс, фонд библиотеки, ЦБС Хатаинского, ЦБС Низаминского, информационное общество.*

*Məqalədə Bakı şəhər Nizami və Xətai MKS-lərində sənəd-informasiya resurslarının formalaşmasının əsas istiqamətləri, sənəd-informasiya resurslarının tərkibi və müasir vəziyyəti haqqında bəhs olunur. Məqalədə həmçinin, informasiya cəmiyyəti şəraitində Bakı şəhər Nizami və Xətai MKS-lərində sənəd-informasiya resurslarının perspektivlərindən də söhbət açılır.*

Giriş.Azərbaycan Respublikası öz dövlət müstəqilliyini əldə etdikdən sonra, dünya iqtisadiyyatına, mədəniyyətinə və elminə inteqrasiya prosesləri də görünməmiş bir vüsət və sürət əldə etmişdir. Bu proseslərin intensivliyində və sürətində ən vacib vasitələrdən birini, heç şübhəsiz ki, informasiya və kommunikasiya texnologiyalarının inkişafı təşkil edir. Xüsusən son illərdə bu problemin dövlət siyasəti səviyyəsinə qaldırılması nəticəsində məqsədyönlü işlərin uğurla həyata keçirilməsi konkret nəticələrini verməkdədir. Azərbaycan dövləti tərəfindən bu sahəyə verilən diqqət, göstərilən qayğı, qəbul edilən uzaqgörən qərar və sərəncamların nəticəsi, konkret səmərəli uğurların əldə edilməsinə şərait yaratmışdır. Bu isə son nəticədə ölkəmizin iqtisadi inkişafına və xalqın rifah halının daha da yaxşılaşdırılmasına səbəb olmuşdur.

Ümumilli liderimiz Heydər Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər) " ölkəmiz üçün çox vacib və həyat

əhəmiyyətli olan bu sahədə görüləcək işlərin və həyata keçiriləcək layihələrin ümumi inkişaf istiqamətlərini müəyyən etməklə xalqımızın rifahı naminə çox böyük bir potensial ehtiyat müəyyənləşdirmişdir. Başlanan bu prosesin məntiqi davamı olaraq2003-cü ilin dekabrında Cenevrədə keçirilən İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı və konseptual çıxışı, 2004-cü ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin yaradılması "Azərbaycan Respublikası rabitə və informasiya texnologiyalarının inkişafı üzrə (2005-2008-ci illər) Dövlət Proqramının (Elektron Azərbaycan)" qəbul edilməsi kimi yüksək önəm daşıyan aktlar, Azərbaycan dövlətinin bu sahəyə böyük diqqət və qayğı ilə yanaşdığını, ölkənin və xalqın gələcəyi naminə bu proqramların əvəzsiz rol oynayacığını bir daha göstərməkdədir.Cenevrədəki tarixi çıxışında İlham Əliyev İKT sahəsində Respublikadakı vəziyyəti inkişaf perspektivlərini düzgün qiymətləndirərək demişdi: "Son on il müddətində kommunikasiya texnologiyaları bizim gündəlik həyatımızın tərkib hissəsinə çevrilmişdir. Artıq bu gündəlik həyatımızı İnternetsiz, e-mailsiz və qlobal rabitənin imkanları olmadan təsəvvür etmək mümkün deyildir. Hazırda biz dövlət proqramı kimi "E-Azərbaycan" ("Elektron Azərbaycan") proqramını inkişaf etdiririk. Elə bilirəm ki, bu, iqtisadiyyatın idarəçiliyində bizə yaxından kömək edəcəkdir." (4, s.19).

"Azərbaycan Respublikasındakitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramının"-nın (1) qəbul edilməsi Azərbaycan hökumətinin, şəxsən Prezident İlham Əliyevin elm və təhsilin informasiya təminatına necə böyük önəm verdiyini bir daha göstərdi. Həmin sərəncamda respublika kitabxanalarının maddi-texniki bazasının dünya standartları səviyyəsinə yüksəldilməsi nəzərdə tutulur ki, bu da ilk növbədə Azərbaycan elminin informasiya təminatında öz misilsiz müsbət rolunu oynayacaqdır (9, s.15).

Məsələnin qoyuluşu.İnformasiya ehtiyatlarının vacibliyi və cəmiyyətdə oynadığı rol respublikamızda lazımınca qiymətləndirilir və bu sahənin hüquqi tənzimlənməsi üçün konkret işlər görülür. Belə ki, 1998-ci ildə qəbul edilmiş "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununda (2) bu sahədə əsas anlayışlar haqqında məlumat verilmiş, dövlət siyasətinin istiqamətləri müəyyənləşdirilmişdir. Bu qanunun qəbul edilməsi ilə ölkəmizdə vətəndaş cəmiyyəti informasiyalaşdırılmış cəmiyyətə keçidin, informasiya ehtiyyatları və onların təminat sisteminin formalaşdırılması və istifadəsinin hüquqi bazası yaradılmışdır.

Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin 1974-cü ildə "Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunu artırmaq" haqqında qərar qəbul etdi.



Bu qərardan dərhal sonra Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi onu həyata keçirmək üçün "Kitabxana işi haqqında" xüsusi qanun qəbul etdi. Bu qərarda kitabxana işinin kitabxana işinin mərkəzləşdirilməsinə hərtərəfli kömək etməkrayon partiya komitələrinə bir vəzifə olaraq tapşırılmışdı.

Sovet hakimiyyəti illərində kitabxana işində aparılan ən böyük isahat olan mərkəzləşmə işi uğurla başa çatdırıldı. Mərkəzləşmə nəticəsində repsublikada 1374 filialı olan 69 mərkəzləşmiş rayon kitabxana sistemi yaradıldı. Respublikamızın 8 şəhərində 111 filialı olan mərkəzləşdirilmiş sistem yardılmışdır.

1968-ci ildən Nizami və Xətai rayonunun Mərkəzləşdirilmiş kitabxana sistemi birlikdə fəaliyyət göstərirdi.1991-ci ildən Nizami və Xətai rayonları ayrılmış və müstəqil olaraq Nizami rayon MKS kimi fəaliyyət göstərməyə başlamışdır.Rayonun əhalisinin sayı 220.000 nəfərdir.Əvvəlki MKS 8-ci km, Xalqlar dostluğu metrosu B.Nuriyev küçəsi 14 ünvanında yerləşirdi.Ümumi sahəsi 445km-dir.5 şöbə fəaliyyət göstərir.(bu əvvəlki yerləşdiyi yerin sahəsidir.)Lakin avqust ayının 1-indən, Q.Qarayev, Balakişiyev küçəsi 11-də yerləşən MKS-nin 6 saylı filialı (uşaq kitabxanası) ləğv edilmişdir.

Nizami və Xətai rayon MKS-nin bu istiqamətdə vahid fondlarının kompleksləşdirilməsi sənəd-informasiya resurslarını formalaşmasının əsas xüsusiyyətlərini və müasir vəziyyətini təkmilləşdirilməsi üçün komplektləşdirmənin müxtəlif üsul və formalarından istifadə etmişdir.

MKS-də vahid fondun komplektləşdirilməsindədaha konkretmüşahidə etmək olar.MSK-də vahid fondun kompleksləşdirilməsində bir sıra mühüm xüsusiyyətlərinnəzərə alınması geniş məna kəsb edir, yeni keyfiyyət üstünlükləri yaradır. Bu xüsusiyyətləri aşağıdakı şəkildə qruplaşdırmaq olar:

a)ölkəmizdə zəngin ədəbiyyat nəşrlərinin mövcudluğu
b)komplektləşdirmənin ideya-siyasi xarakterinin dəqiqləşdirilməsi
c)komplektləşdirmənin kitabxana vəzifələrinə uygunlaşdirilmasi
ç)komplektləşdirmənin planli və müntəzəm xarakter daşıması
d)komplektləşdirmənin konkret oxucu tələbatina isnad edilməsi
e)komplektləşdirməyə rəhbərliyin səmərələşdirilməsi .(8, s.9).

Bütün bu mühüm xüsusiyyətlər vahid fondunformalaşmasının əsas mahiyyətinitəşkil edir, onun komplektləşdirmə keyfiyyətini müəyyənləşdirir.

MKS-in geniş fəaliyyətinəticəsində 2010-2015 ci illərdə fondun komplektləşdirilməsi və formalaşdırılması işi müvəffəqiyyətlə davam etdirilirdi. Əgər 2010-cu ildə MKS-ə 53 991 nüsxə, 2011-ci ildə 51 524 nüsxə, 2013 cü ildə 54 980 nüsxəyeni ədəbiyyat daxil olmuşdursa, 2014-cü ildə burəqəm 80 646 nüsxə təşkil etmişdir. Bunu aşağıdakı cədvəldə daha aydın görmək mümkündür:

| Sıra | İşin növləri | İllər üzrə işin yerinə yetirilməsi | | Uçot vahidi | Qeyd |
|---|---|---|---|---|---|
| | | 2011 | 2012 | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 1 | Fondun ümumi həcmi | 200490 | 181573 | | |
| 2 | Yeni daxil olan ədəbiyyatın və digər informasiya daşıyıcılarını (CD, audio-video kasetlər və s.) | | | | |
| | ümumi həcmi, o cümlədən: | 1000 | 702 | | |
| | -neçə adda kitab daxil olub | 359 | 201 | | |
| | -elm sahələri üzrə | | | | |
| | -nüsxə etibarilə | | | | |
| | təbiət və kənd təsərrüfatı elmləri | 18 | 16 | | |
| | sosial, humanitar və iqtisadiyyat elmləri | 55 | 95 | | |
| | dilçilik, filologiya | 881 | 475 | | |
| | fəlsəfə elmləri | 46 | - | | |
| | məlumat ədəbiyyatı, ensiklopediyalar | 933 | 586 | | |
| | -dillər üzrə (azərbaycan və xaric) | 67 | 116 | | |
| | Azərbaycan dilində | | | | |
| | Xarici dillər | | | | |
| 3 | Dövrü mətbuat (neçə adda qəzet, jurnal) | 9 | 11 | | |
| 4 | Oxucuların ümumi sayı, o cümlədən: | 33985 | 34241 | 34622 | |
| | | 4609 | 4637 | | |
| | -qulluqçular | 4401 | 4433 | | |
| | -istehsalatda çalışanlar və | 4189 | 4217 | | |
| | mütəxəssislər | 4272 | 4300 | | |
| | -müəllimlər | 4428 | 4456 | | |
| | -həkimlər | 1843 | 1871 | | |
| | -mühəndislər | 5655 | 5683 | | |
| | -fəhlələr | 1597 | 1625 | | |
| | -tələbə və şagirdlər | 2991 | 3019 | | |
| | -təqaüdçülər | | | | |
| | -digər oxucu qrupu | | | | |
| 5 | Oxucuların kitabxanaya gəlişi | 135940 | 136964 | 119726 | |



| Sıra | İşin növləri | | | | |
|---|---|---|---|---|---|
| 6 | Kitab verilişi (ümumi), o | 556454 | 410892 | 415316 | |
| | cümlədən: | 223104 | 201252 | | |
| | -abonement (xidmət) üzrə | 211240 | 107260 | | |
| | -qiraət zalı üzrə | 122110 | 102380 | | |
| | -KAA üzrə | | | | |
| | -səyyar kitabxanaları üzrə | | | | |
| | -elm sahələri üzrə | 132452 | 110121 | | |
| | təbiət və kənd təsərrüfatı elmləri | 124811 | 101440 | | |
| | sosial, humanitar və iqtisadiyyat | 117426 | 89251 | | |
| | elmləri | 81038 | 61102 | | |
| | dilçilik, filologiya | 74204 | 48011 | | |
| | fəlsəfə elmləri | | | | |
| | məlumat ədəbiyyatı, ensiklope- | 353037 | 280256 | | |
| | diyalar | 203417 | 130636 | | |
| | -dillər üzrə (azərbaycan və xaric) | | | | |
| | Azərbaycan dilində | | | | |
| | Xarici dillər | | | | |

*Cədvəl 1*

Nizami MKS-də bu işi müvəffəqiyyətlə həyata keçirmək üçün kitabxanaçılar fondunayri-ayri bölmələrinə təhkim olunurlar.Onlar bir vəzifəkimihəmin bölmələrin kitablarını müntəzəm olaraq nəzərdən keçirib, onların kataloqlarda əks olunmasını təmin edirlər.

Bütün bu deyilənlər kitabxananintematik-tipoloji planında olunmalıdır. Bu da bütün kitab fondu tərkibinin düzgün inkişafı üçün şəraityaradır, düşünülmüş, elmi şəkildə əsaslandırılmış çap əsərlərinin toplanmasına və kitabxana qarşısındaduran vəzifələrin yerinə yetirilməsinə təsir edir. Tematik –tipolojiplan kitabxana fondunun planlaşdırılmasının əsasını təşkil edir, komplektləşdirmə işinin məqsədə uygun şəkildə təşkil edilməsi üçün mühüm şərait yaradır. Sumqayit MKS-də qeyd olunan məsələlərin həyata keçirilməsinə kömək üçün məlumat aparatə təşkilolunmuşdur.Həmin məlumat aparatının tərkibinə aşağıdakılar daxildir:

1.MKS-in vahid fondunu komplektləşdirilməsinin tematik –tipoloji planı
2.Yenidən komplektləşdirmənin sistemi kortotekası.
3.Yenidən əlavə komplektləşdirmənin sistemi kortotekası.
4.Şəhərin iqtisadi və mədəni profil kortotekası.
5.Dövri nəşrlərin kortotekası.
6.Nəşriyyatların, kitab mağazalarının ünvanlarının malumat kortotekası.
7.Yerinə yetirilmiş sifarişlərin kortotekası (7, s.33).

Kitabxana fondunun komplektləşdirilməsinin üç növü fərqləndirilir: cari, təkrar, ilkinkomplektləşdirmə-yeni yeni açılankitabxanafondunun yaradılması

Oxucu tərkibinin öyrənilməsi və təhlil edilməsi məqsədilə kitabxana müxtəlif üsullardan və formalardan: oxucu formulyarı; sorğu vərəqəsi və, sistifadə edir. 2002 və 2014-cü illərdə kitabxananın təşkil etdiyi sorğular əsasında 5000 nəfər oxucunun sorğusu2011-ci ildə 2500 nəfər, 2014-cü ildə 2500 nəfər öyrənilmiş, marağı müəyyənləşdirilmiş vəəldə müsbət nəticələr kitab fondunun təkmilləşdirilməsində istifadə edilmişdir.1982-1986 cı illərdə kitabxana dərslik və tədris vəsaitlərinin, ictimai – siyasi ədəbiyyatın komplektləşdirilməsi 1, 5 və 2 nəfərdən çox artmışdır (7, s.13).

Cari komplektləşdirmənin ikinci mərhələsini əsasən alınan kitabların dəqiq müəyyənləşdirilməsi və əldə edilməsi təşkil edir. Sumqayıt şəhər MKS-i bu mühüm vəzifənin öhdəsindən gəlmək üçün bir sıra üsullardan istifadə edir. Həmin üsullar aşagıdakı şəkildə qruplaşdırılır:

a)əyani kitabxana kollektoru, kitab mağazaları

b) qiyabi komplektləşdirmə.

Nəşriyyatların tematik planları hər il müntəzəmolaraq kollektor tərəfindən MKS-ə göndərilir. Lakin onu da qeyd etmək lazımdır ki, bəzi nəşriyyatlar tematikplanları vaxtında göndərmirlər. Bəzi nəşriyyatlar isə tematik planda nəzərdə tutduqları kitabların hamısını vaxtında nəşr etmirlər. Bu da müəyyən bir dərəcədə komplektləşdirmə işinə mənfi təsir göstərir.

Cari komplektləşdirmənin tamlığını yalnız kitabların miqdarina görə deyil, onun keyfiyyətinə görə müəyyənləşdirmək lazımdır. Cari komplektləşdirmə yalnız kəmiyyətcə deyil, keyfiyyətcə istifadəetmə səviyyəsi cəhətdən də oxucuların sorğularını, tələblərini ödəməlidir. Adətən cari komplektləşdirmə zamanı kitabxanalarda fondlar kəmiyyət etibarilə daha böyük üstünlüklər təşkil edir. Bunu S.Vurgunadına Sumqayıt şəhər MKS-nin 2010-2015-ci illərdə komplektləşdirdiyi kitabların cədvəlində müşahidə etmək olar.

| İllər | Kitab fondunun miqdarı |
|---|---|
| 2010 | 520 125 |
| 2011 | 573 126 |
| 2012 | 609 433 |
| 2013 | 644 146 |
| 2014 | 681 959 |
| 2015 | |

*Cədvəl 2*



Cədvəldən göründüyü kimicarikomplektləşdirməəsasında vahid fondun həcmi nəzərdə tutulan dövrdə1-1, 5 dəfə artmışdır.

MKS nəzərdə tutulan dövrdədaim öz köhnəlmiş və məzmunca əhəmiyyətini itirmiş kitablardan təmizlənmişdir. Kitabxana 1978-ci il təlimatına uygun olaraq fonddan, kitabxana 1981-ci ildə 2348nüsxə ədəbiyyat çıxartmışdırsa, 1984-cü ildəbu rəqəm 3402nüsxə 2, 1985-ci ildə7257 3 nüsxə olmuşdur.

| İllər | İctimai Siyasi - Ədəbi | Kənd təsər- ədəbi | Təbiət Və Riyaz | Texnika | Bədii Ədəbi-yyat | İncə İd. | Uşaq ədəbi-yyatı | Başq ədəb-iyyat |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 2011 | 10508 | 206 | 2120 | 1254 | 15521 | 1047 | 2279 | 1779 |
| 2012 | 17688 | 2570 | 4049 | 3548 | 20683 | 2083 | 2944 | 3728 |
| 2013 | 11213 | 139 | 3096 | 1962 | 19920 | 2117 | 1291 | 1812 |
| 2014 | 9494 | 64 | 2670 | 1126 | 17340 | 21047 | 2388 | 1852 |

*Cədvəl 3*

Hal-hazırda MKS-in fondunda olan 681.025 nüsxə ədəbiyyatının 183804 nüsxənin ictimai-siyasi, 48.603 nüsxənin elmi təbii, 31934 nüsxəsinin texnika, 4658 nüsxəsini kənd təsərrufatı, 29047 nüsxəsini incəsənət və idman 303418 nüsxəsini bədii ədəbiyyata, 31437 nüsxəsini isə uşaq ədəbiyyatı təşkil edir.

Baki Şəhəri Nizami Rayonuvə Xətai rayonu ərazisindəki kitabxanalara, o cümlədən həmin ərazidəki idarə müəssisələrin kitabxanalarına komplektləşdirmə. İşinə metodik rəhbərlik edir. Komplektləşdirmə orqanları qarşısında şəhərin iqtisadi və mədəni həyatı, həmçinin geniş oxucu kütləsinin marağı ilə əlaqədar olan məsələlər qaldırır.

S.Vurğun adına Xətai MKS-i illialar üçün nəşriyyatların buraxdığı tematik planlar üzrə komplektləşdirməyə necə hazırlaşmalı, kitab fondunun tərkibinin və ondan istifadənin vəziyyətinin öyrənilməsi, köhnəlmiş və istifadəyə yaramayan kitabların fonddan təmizlənməsi, artıq nüsxələrin inkar edilməsi,

mübadilə yolu ilə başqa kitabxanalara verilməsi, həmçinin müşavirələr təşkil edir, təcrübi məşğələlər kecirir. Daha yaxşı rəhbərlik etmək, komplektləşdirmə işini elmi əsaslar üzrə həyata kecirmək ücün Mərkəzi kitabxananin nəzdində kitabxana işini yaxşı bilən savadlı və bacarıqlı kitabxana işçilərindən ibarət komplektləşdirmə şurası yaradılmışdır. Komplektləşdirmə işinin mərkəzləşdirilməsi oxuculara xidmətin vəzifəsini yaxşılaşdırır, kitabxanaya artıq nüsxələrin daxil olmasınınqarşısını alır, kitabxanalararasinda əlaqəni gücləndirir.

Xətai rayonu sənaye rayonudur. 1940-ci ildən yaranmışdır. Sahəsi 31, 6 $km^2$, əhalisinin ümumi sayı 261000 nəfər təşkil edir. Burada 4 ali məktəb, 38 orta ümumtəhsil məktəbi, 48 uşaq və körpələr evi, 1 kollec, 1 özəl gimnaziya, 1 hərbi və 3 peşə litseyi, 15 səhiyyə müəssisəsi, müasir incəsənət muzeyi, Nobel qardaşlarının ev muzeyi, Xətai Mədəniyyət Mərkəzi, B. Məmmədov adına Mədəniyyət evi, 5 uşaq musiqi məktəbi, Z. Tağıyev adına toxuculuq fabriki, Azərbaycan Neft-Yağ zavodu fəaliyyət göstərir. Nəhayət, Xətai rayonunda 1 MKS-5 filial və M.Ə.Sabir adına kitabxana və klub mövcuddur. Xətai rayon MKS-i 1975-ci ildən fəaliyyətdədir. 1986-cı ildən isə dahi Azərbaycan şairi Səməd Vurğunun adını daşıyır.

Xətai rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi 1975-ci ildə Bakı şəhərində ilk və yeganə sistem kimi eksperiment olaraqyaradılmışdır.

İş təcrübəsi öyrənilən ikinci rayon Nizami rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemidir. Nizami rayonu 1980-cı ildə yaradılmış, ərazisi 19, 6 km2-dir. Rayonun ərazisində 22 orta məktəb, 4 ümumtəhsil məktəbi, Kimya-biologiya təmayüllü litsey, "Dədə Qorqud" özəl türk liseyi, uşaq, gənclər və texniki yaradıcılıq mərkəzləri, 20 uşaq bağçası, 1 uşaq evi, 2 respublika internat məktəbi, 2 kollec və özəl təhsil ocağı olan Xəzər Universiteti fəaliyyət göstərir. Bundan başqa rayon ərazisində 9 xəstəxana, 13 ambulator klinika, 6 stadion, 8 idman sağlamlıq kompleksi, 13 ixtisaslaşdırılmış olimpiya ehtiyyatları və uşaq-gənclər idman məktəbi vardır.

Nizami rayon MKS-nə daxil olan kitabxana filialları aşağıdakı kimi yerləşdirilmişdir.

1) Nizami rayon MKS-nin 1 saylı kitabxana filial.
Ünvan: AZ Bakı şəhər, Nizami rayon 8km Q.Qarayev m/sı A.Manafovka 9 kitabxana 1959-cu ildəyaranmış ümumi sahəsi 95 kv.m.
Kitab fondu (nüsxə)47819
Oxucuların sayı (nəfər)4006
Kitab verilişi50979
Gəliş5911
Yeni kitab daxil olub214 nüs.



2) Nizami rayon MKS-nin 2 saylı kitabxana filial strukturu. (Uşaq) AZ 119, Bakı şəhəri Nizami rayon 8km Naxçıvanski küç. 90
Kitabxana 1975-ci ildən yaranmış ümumi sahəsi 632 kv.m.
Kitab fondu 71826
Oxucuların sayı (nəfər) 6195
Kitab verilişi (nüsxə) 58940
Gəliş 25702

3) Nizami rayon MKS-nin 3 saylı kitabxana filial. AZ Bakı şəhəri Keşlə qəsəbəsi Türkmən küç. 10, kitabxana 1970-ci ildən yaranmış, sahəsi 500 kv.m
Kitab fondu (nüsxə) 25030
Oxucuların sayı (nəfər) 4340
Kitab verilişi (nüsxə) 31714
Gəliş 18904

4)Nizami rayon MKS-nin 4 saylı kitabxana filialının strukturu.
Ünvan: AZ Bakı şəhər, Məhsəti küç. 23 kitabxana 1972-ci ildə yaranmış, ümumi sahəsi 316 kv.m-dir.
Kitab fondu 41896
Oxucuların sayı (nəfər) 5543
Kitab verilişi (nüsxə) 84365
Gəliş 27441
Filial 31 sərgi təşkil edib, 10 söhbət aparmış 2 qarət alır.

5) Nizami rayon MKS-nin 5 saylı kitabxana filialının strukturu.
Ünvan: AZ Bakı şəhər, NZS qəsəbəsi, İ.Həbibov küç. 51. Kitabxana 1973-cu ildən yaranmış, ümumi sahəsi 125 kv.m-dir. 2013-cü ilin iyun ayından NZS qəsəbəsindəki kitabxana bağlanmış və sonrakı fəaliyyətini 2 saylı filialda davametdirmişdir.
NZS-nin 5 saylı kitabxana filialının əsas göstəriciləri.
Kitab fondu22636
Oxucuların sayı (nəfər) 4491
Kitab verilişi (nüsxə) 53005
Gəliş 32517
Kitabxana 17 kitab sərgisi təşkil etmiş, 4 biblioqrafik icmal keçirmiş, fonduna Xətai rayon MKS-in tərkibinə 3 kitabxana-filial daxildir. Bunlar aşağıdakılardan ibarətdir.
1.2 saylı filial
2.3 saylı filial
3.4 saylı filial (5, s.22).

İl ərzində filialların iş strukturu:

MKS-in öz işini günün tələbləri səviyyəsində qurması üçün filiallarının işi də çox əhəmiyyətli rol oynayır. Filiallar müxtəlif maraqlı tədbirlər keçirməklə oxucular kitabxanalara cəlb edilir.

3 saylı filalın işçi kollektivi bundan sonra da çalışacaqlar ki, öz işlərini günün tələblkəri səviyyəsində qursunlar və oxucularda kitaba olan marağı daha da artırsınlar.

MKS-in 4 saylı filialının binası kənd Əhmədli 2-ciƏhmədli döngəsində yerləşir. Lakin binanın təmirə dayanması ilə əlaqədar 4 saylı filialın işçi kollektivi və fondu müvəqqəti olaraq Mərkəzi Kitabxanaya köçürülmüşdür. Filial öz fəaliyyətini burda davam etdirir.

Məlumdur ki, böyüməkdə olan nəslin, xüsusilə yeniyetmə və gənclərin təlim və tərbiyəsində kitabın və kitabxanaların rolu böyükdür. Belə ki, bu sahədə çalışan kitabxanaçıların üzərinə böyük məsuliyyət düşür. Əhalinin kitabxanaya cəlb olunmasında kitabxana işçilərinin əməyi danılmazdır. Kitabxanamız kənd sakinlərinin eləcə də, 217 saylı məktəbin, 214 saylı kənd poliklinikası ilə, mədəniyyət evi ilə, kənd bələdiyyəsi ilə, Kənd icra hakimiyyəti nümayəndliyi ilə mütəmadi olaraq tədbirlər keçirir. Oxu zalında yeni kitabların sərgisi, oxucularımızın kitabxanaya cəlb olunması üçün təçkil olunub. Ümumiyyətlə kitabxana işçiləri öz işlərində bütün oxucu təbəqəsini əhatə edir. Kitabxanamızda açıq rəf üsulu təşkil olunur.

Beləliklə, MKS-lərin soraq-informasiya fondunun təşkili istehsalat və elmi texniki profilə uyğun olan nəşrlər hesabına vahid fondun daha dolğun formalaşdırılmasıdır. Bu tip nəşrləri əsasən aşağıdakı qruplara ayırmaq olar:

İlkin sənədlər.

Siqnal-biblioqrafik və referativ nəşrlər.

Faktoqrafik xarakterli sənədlər (6, s.21).

İlkin sənədlər içərisində informasiya orqanlarının seriyalarla buraxdığı nəşrləri xüsusilə qeyd etmək lazımdır. Respublika və sahəvi informasiya mərkəzləri qabaqcıl istehsalat təcrübələrini əks etdirən texniki vərəqlər, informasiya vərəqələri, istehsalat-texniki plakatlar hazırlayıb nəşr edirlər. Texniki və informasiyavərəqələri elm və texnikanın əlaqədar sahələri üzrə buraxılır. Burada tətbiq edilmiş yeni texnika və texnologiya qabaqcıl istehsalat təcrübələri, səmərələşdirici təkliflər öz əksini tapır. Adətən texniki və informasiya vərəqələri bir neçə (3-6) səhifədən ibarət olur. Onların seriyaları və buraxılış dövriliyi informasiya nəşrlərinin prospektində verilir. İnformasiya və texniki vərəqələr əsasında idarə və müəssisələr əlaqədar sahə üzrə elmi-texniki yeniliklərlə qabaqcıl istehsalat təcrübələri və s.-lə operativ tanış olmaq imkanı əldə edirlər. İstehsalat plakatları isə tətbiq edilmiş müəyyən texniki yeniliyin məzmununu, mahiyyətini, texnologiyasını əks etdirir. Burada müəyyən yenilikçi



şəxsin iş üslubu və təcrübələri sadə dildə izah olunur və illustrativ materiallarla təmin edilir.

Elm və texnikanın müxtəlif sahələrinə dair yüzlərlə adda dövri olmayan biblioqrafik göstəricilər, arayışlar və siyahılar hazırlanır. Geniş informasiya həcminə malik olan və geniş oxucu qruplarını əhatə edən biblioqrafik vasitələr respublika mərkəzi kitabxanaları tərəfindən hazırlanır. MKS-lərdə biblioqrafik informasiya xidmətinin səmərəli təşkili dövri xarakterli referativ nəşrlərin alınması ilə sıx bağlıdır. Dövri biblioqrafik və referativ nəşrləri aşağıdakı kimi qruplaşdırmaq olar:

Elm və texnikanın müxtəlif sahələri üzrə referativ jurnallar.

İxtiralarla və standartlara dair biblioqrafik və referativ jurnallar.

Dərc edilməyən sənədlərə (hesabatlara, dissertasiyalara) dair referativ nəşrlər (9, s.19).

Referativ jurnallara respublikalarda və xarici ölkələrdə nəşr edilən aktual cari sənədlərin biblioqrafik təsvirləri və referatları öz əksini tapır. Onlar digər dövri nəşrlər kimi, abunə yolu ilə komplektləşdilir.

Referativ jurnallardan nəinki informasiya axtarışı, həm də digər kitabxana-biblioqrafiya işlərini həll etmək üçün istifadə edilir. Məsələn, biblioqrafik arayışların hazırlanmasında, fondun retrospektiv komplektləşdirilməsində və s. Hesablamalara görə, elmi tədqiqatla məşğul olan işçilərin böyük bir faizi informasiya axtarışında referativ jurnallardan istifadə edirlər. Referativ jurnalların toplu (ümumi) buraxılışları və elmin, texnikanın əlaqədar yarımsahələri üzrə ayrıca buraxılışları vardır. Məsələn, "Fizika" referativ jurnalların aylıq toplu cildi ilə yanaşı, ayrı-ayrı yarımsahələri (molekulyar fizika, atom fizikası, yarımkeçiricilər fizikası və s.) üzrə ayrıca buraxılışları vardır. Ayrıca buraxılışların qiyməti toplu cildə nisbətən bir neçə dəfə ucuzdur və onlar fərdi abunəçilər üçün nəzərdə tutulur. Adətən referativ jurnallarMKS-lərdə bir nüsxədə alınır.

MKS-lərin soraq-informasiya fonduna komplektləşdirilməsi lazım gələn nəşrlər içərisində ixtiralara və standartlara dair biblioqrafik və referativ nəşrlər vacib yer tutur. Tətbiqi-elmi tədqiqat işlərinin yeniliyinin və səmərəliliyinin təmin edilməsi, yeni texnika və texnologiyanın işlənməsi və tətbiqi, məhsul istehsalı və ixracı, məhsulun yüksək kompleks keyfiyyət göstəricilərinin təmin edilməsi, yüksək estetik səviyyəsi və digər vacib elmi-texniki və iqtisadi fəaliyyət sahələri yalnız patent sənədlərinə və standartlara əsaslanır. Təcrübələr göstərir ki, kitabxanaların elmə və iqtisadiyyata əməli, real köməyi məhzbu tip sənədlərin təbliğində özünü daha qabarıq göstərir. (7, s.13).

Patent sənədləri (müəlliflik şəhadətnamələri, patentlər, sənaye nümunələri, əmtəə işarələri, faydalı modellər), standartlar (dövlət standartları, respublika standartları, sahəvi standartlar, müəssisə standartları), texniki şərtlər (sahəvi, sahələrarası, müəssisə texniki şərtləri) və normalar (tikinti, maşınqayır-

ma, kənd təsərrüfatı normaları və s.) rəsmi olaraq dövlət qeydiyyatında keçir, əlaqədar nömrələr alır və buraxılır. Həmin sənədlər üzrə respublika elmi-texniki kitabxanalarında, bir sıra müəssisə və idarələrin informasiya şöbələrində dolğun fondlar yaradılmışdır. Aparılan tədqiqatlar göstərir ki, respublikamızın idarə və müəssisələrinin az bir qismində kiçik patent və standart fondları vardır. MKS-lərin soraq-informasiya fonduna ilkin patent sənədlərini və standartları patentləşdirmək hazırda bir qədər çətin olsa da, həmin sənədlər üzrə dövri biblioqrafik və referativ nəşrlərin alınması mümkündür. Bu tip nəşrlər əsasında bir çox məsələləri yerlərdə həll etmək olar.

MKS-lərin soraq-informasiya fondunun yaradılması üçün vacib elmi-texniki nəşrləri müəyyənləşdirdikdən sonra onlarınkomplektləşdirilməsini həyata keçirmək olar.

Soraq-biblioqrafiya aparatı soraq və biblioqrafik nəşrlər fondundan, kataloq və kartotekalar sistemindən, yerinə yetirilmiş arayışlar fondundan ibarətdir. Soraq-biblioqrafiya aparatı çap məhsullarının və başqa nəşrlərin təbliğ edilməsi və mütaliəyə məqsədyönlü rəhbərlik etmək üçün nəzərdə tutulur.

MKS-lərin mərkəzi soraq-biblioqrafiya aparatı Mərkəzi Kitabxanada, Mərkəzi Uşaq kitabxanasında yaradılır. Bütün kitabxanalarda soraq və biblioqrafik nəşrlər seçilib ayrıca fond kimi toplanır və bir qayda olaraq oxu zalında, yaxud oxuculara münasib başqa bir yerdə açıq rəf üsulu şəraitində yerləşdirilir. Soraq nəşrlərinin vahid nüxsələri oxucular tərəfindən yalnız kitabxananın daxilində istifadə edilir və evə verilmir. Sahəvi biblioqrafik göstəricilərin təkrar nüxsələri isə oxu zalının və yaxud abonomentin fondlarının müvafiq elm sahələrinə dair bölmələrində yerləşdirilir.

Soraq və biblioqrafik nəşrlər fondu Mərkəzi kitabxananın məlumat-biblioqrafiya şöbəsinin ixtiyarında olur.Oraya rəhbər materialların nəşrləri, o cümlədən, soraq cildləri ilə birlikdə dövlətin, hökümətin, qanunverici və başqa rəsmi orqanların sənədləri daxildir. Soraq nəşrlərin universal və sahəvi ensiklopediyalar, izahlı, dilçilik və terminlər lügəti, xalq təsərrüfatı və mədəniyyət üzrə statistik, coğrafi atlaslar və bu tipdən olan diyarşünaslıq xarakterli nəşrlər aiddir.

Mərkəzi kitabxananın fondunda sistemə yeni daxil olan ədəbiyyatın məlumat bülletenləri, respublika, vilayət kitabxanalarının nəşr etdiyi göstəricilərin olması vacibdir. MKS-lərin Mərkəzi kitabxanalarının soraq və biblioqrafik nəşrlər fonduna ilk və vahid nəşrləş göndərilir ki, onlar da sahəvi və ixtisaslaşdırılmış bölmələrdə yerləşdirilir. Uşaq oxucuların və uşaqların mütaliəsinə rəhbərlik edənlərin sorğularını ödəmək üçün yaradılmış soraq və biblioqrafik nəşrlər fonduna uşaqlar üçün nəzərdə tutulmuş lügətlər, soraq kitabları, ensiklopediyalar, tövsiyyə vəsaitləri, uşaq mütaliəsi dairəsinə daxil edilən və kitabxanaçılar tərəfindən mütaliəyə rəhbərlikdə istifadə oluna bilən ədəbiyyatı əks etdirən yaşlılar üçün vəsaitlər, uşaq ədəbiyyatının elmi-köməkçi və tövsiyə biblioqrafik vəsaitləri, həmçinin tənqidi biblioqrafik və s. vəsaitlər daxildir. Uşaqlar üçün nəzərdə tutulmuş və uşaq ədəbiyyatına dair soraq və biblioqrafik nəşrlər də ilk və vahid nüxsədə alınaraq mərkəzi uşaq kitabxanasının fonduna göndərilir.(12, s.19).



MKS-lərin kataloq və kartotekalar sistemi, vahid fondu hərtərəfli açan və təhlil edən kompleks soraq-informasiya aparatı kimi formalaşdırır. Kataloq və kartotekalar sistemini kitab fondunu əks etdirən mərkəzi kataloqlar, ayrı-ayrı nəşr növlərinin mərkəzi kataloqları, kitabxana-filialların kataloqları təşkil edir. Kataloqlar kartoçka forması ilə yanaşı çap (kitab) formasında da aparıla bilər. Bütün filial-kitabxanaların fondunda olan ədəbiyyat haqqında geniş məlumat verməyə imkan verən mərkəzi kataloqların daha səmərəli forması çap kataloqları hesab olunur.

Kataloq və kartotekalar sisteminə əlifba və sistemli kataloqlar, məqalələrin sistemli kartotekası, diyarşünaslıq kataloq və kartotekaları, biblioqrafik və metodik vəsaitlər kartotekası, bədii ədəbiyyat əsərlərinin sərlövhə göstəriciləri, ayrı-ayrı növ nəşr və materialların kataloq və kartotekaları daxildir. Məqalələrin sistemli kartotekası kütləvi kitabxanalar üçün təsnifat cədvəlləri üzrə qurulur. Resenziyaların təsvir edildiyi kartoçkalar məqalələrin sistemli kartotekasının axırında "Resenziya" ayırıcının arxasında yerləşdirilir və resenziya yazılmış kitabların müəlliflərinin əlifba sırası ilə düzülür.

Mərkəzi kitabxanadakı məqalələrin sistemli kartotekasına mərkəzləşdirilmiş sistemin abunə olduğu jurnal, qazet və ardı davam edən nəşrlərdə dərc olunmuş məqalələrin təsvir kartoçkaları daxil edilir.

Metodik materialların sistemli kartotekasında biblioqrafik vəsaitlər təsnifat cədvəllərinə uyğun olaraq qurulur. Biblioqrafik vəsaitlərin sistemli kartotekasına məlumat kitablarının, lügətlərin, biblioqrafik vəsaitlərin növlərinin (dövlət biblioqrafiyası və tövsiyyə göstəriciləri, kitab içərisi, məqaləyanı biblioqrafik siyahılar) təsviri daxil edilir.

Analitik kartoteka üçün müstəqil nəşr olunmuş vəsaitlərdən, metodik və biblioqrafik materiallar məcmuələrindən bölmələr, fəsillər köçürülür. Biblioqrafik vəsaitlər kartotekası rayonun, şəhərin bütün idarələrinin kitabxanalarında saxlanılan və geniş oxucu dairəsinin istifadə edə biləcəyi məlumat və biblioqrafik nəşrlərin ümumi kataloqunun yaradılması üçün əsas rola malikdir.

Mərkəzi kitabxanada əlavə olaraq ayrı-ayrı nəşrləri həmçinin jurnallarda dərc edilmiş materialları əks etdirən bədii ədəbiyyat əsərlərinin sərlövhəsinin əlifba göstəricisi yaradıla bilər. Kataloq kartoçkasında sərlövhədən sonra müəllifin soyadı verilir. Jurnalda nəşr edilmiş əsərin təsvir kartoçkasının üzərində sərlövhədən sonra müəllifin soyadı, həmçinin Mərkəzi kitabxananın qərarı ilə nəşr ili və nömrəsi göstərilir.Ayrı-ayrı nəşrlər çap edildikdə, onlar haqqında məlumatlar qabaqcadan yazılmış kartoçkalarda əks etdirilir. (12, s.20).

Nəticə. Beləliklə, ödənilmiş arayışlar fondu Mərkəzi kitabxanada və Mərkəzi Uşaq Kitabxanasında (uşaq ədəbiyyatı üzrə) yaradılır. BurayaMKS aktual siyasi və elmi mövzular üzrə ödənilmiş arayışlar, təmin edilməsi üçün mürəkkəb biblioqrafik axtarış prosesi tələb edən arayışlar, mütəxəssislərin məsləhətləri, həmçinin tez-tez sorğu verilən arayışlar daxil edilir. Ödənilmiş arayışlar fonduna Mövzu kartotekası təşkil edilir. Arayışlar qovluqlarda yaxud zərflərdə toplanıb saxlanılır. Həmin kartoteka üçün kartoçkalar aşağıdakı kimi tərtib olunur.Kartoçkanın mərkəzində mövzunun adı, sorğunun məqsədi, yuxarıda mövzu rubrikası, yuxarı sağ küncdə qovluğun nömrəsi və oradakı arayışın sıra

Həmçinin MKS-də informasiya resurslarının komplektləşdirilməsinin əsas istiqamətləri və perspektivləri nəzərdən keçirilmişdir. Bu prosesləri 5 şöbədən biri olan "kitab işləmə və komplektləşdirmə" həyata keçirir.

## ƏDƏBİYYAT


1."Azərbaycan Respublikasının kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"//Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal.-2008 №2.-s.6-29.
2."İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1998, 17s.
3. Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında. I və II cild. Bakı, 2007.S.240-242.
4.Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında. III cild.Bakı, 2010.S.293-303
5.(Kitabxanaların fəaliyyəti haqqında statistik müayinənin nəticələri barədə statistik bülleten.B., 2009.S.23, 44, 48, 78)
6.Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsi məsələləri//Elmi əsərlərin tematik məcmuəsi.-B, 1986.-98s.
7.Xələfov A. Kitabxanaşünaslığa giriş:dərslik (3 hissədə) –H.1-2.-B., 2001-400s
8.Xələfov A., Kazımov R., Bədəlov E. Kitabxana işçisinin məlumat kitabı-B., 1986.-s.91
9.İsmayılov X. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminatı sisteminin inkişaf tarixi (1918-2000) –B., 2000.-220s
10.Kitabxana işinə dair normativ aktlar.- B., 2001.-s.7.
11. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu.-B., 1999
12.Nizami MKS-nin 2010-2015-ci illərə dair hesabatı
13.Xətai MKS-nin 2010-2015-ci illərə dair hesabatı


**A.Aliyev, R.Gardashov**

## MAİN FEATURE FORMATİON AND MODERN SİTUATİON OF THE DOCUMENT-İNFORMATİON RESOURCES THE CLS OFBAKU CİTY NİZAMİ AND KHATAİ DİSTRİCTS

### SUMMARY


The article is talking about Nizami and Khatai CLS formation of the main areas of document and information resources, documents and information resources on the state of the art is about. The article also talking aboutterms of the information society are in Baku city Nizami and Khatai CLS, also talks about the prospects of document and information resources.




**А.Алиев, Р.Гардашов**

## СОВРЕМЕННОЕ СОСТОЯНИЕ И ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ДОКУМЕНТАЛЬНО-ИНФОРМАЦИОННЫХ РЕСУРСОВ ЦБС НИЗАМИНСКОГО И ХАТАИНСКОГО РАЙОНОВГОРОДА БАКУ

### РЕЗЮМЕ


В статье анализируетсясостояние и основные направления развития документально-информационных ресурсов ЦБС Низаминского и Хатаинского районов-города Баку. А также уделено особоевнимание расскрытию основных компонентови структур библиотечно-информационных ресурсов в этих информационных центров.